Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

# Milli informasiya-kommunikasiya texnologiyaları Ermənistanın təxribatlarının ifşasında əsas resurs kimi...

**Yaşadığımız çağın ən üstün cəhətlərindən biri informasiya texnologiyalarının inkişaf etməsidir. Heç şübhəsiz ki, informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilib. Sirr deyil ki, informasiya texnologiyaları günümüzün ən vacib Məlumat daşıyıcısına çevirilib.**

Bütün dövlətlər informasiya-kommunikasiya texnologiyalarının yaratdığı üstünlüklərdən lazımi səviyyədə faydalanmağa can atırlar. Bəziləri bundan aşırı dərəcədə yararlanır, öz yanlış, yalan informasiyalarını yaymaq, dünyanın beynini zəhərləmək üçün istifadə edir, bəziləri də gerçəkləri dünyaya çatdırmaq üçün. Bu gün Azərbaycanın informasiya-kommunikasiya texnologiyalarının yaratdığı üstünlüklərdən daha yüksək səviyyədə və çevik şəkildə yararlanmasına ciddi zərurət var. Çünki Azərbaycan dövləti informasiya savaşı aparır. Məkrli düşmən informasiya texnologiyalarından istifadə edərək bizə qarşı qarayaxma kampaniyasını indi də davam etdirir. Onlar bütün informasiya resurslarından istifadə edərək dünyanı Azərbaycana qarşı qaldırmağa cəhdlər edirlər. Ekspertlər vurğulayırlar ki, dünyada informasiya müharibəsi texnologiyalarının inkişafı və dövlətlər arasında baş verən hərbi və siyasi qarşıdurmalar belə deməyə əsas verir ki, yaxın gələcəkdə qarşı tərəf üzərində əsas üstünlük informasiyanın ələ keçirilməsi, onlara çevik reaksiya verilməsi, real vaxt rejimində qarşı tərəfin informasiya mənbələrinin məhv edilməsi ilə əldə olunacaqdır.

**"Ermənistanın təxribatlarının ifşa olunmasında müasir informasiya texnologiyalarından..."**

Azərbaycan 44 günlük Vətən savaşından sonra dünyada da Ermənistanın yalanlarına, təxribatlarına qarşı mübarizəni davam etdirir.

Sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistanın törətdiyi sərhəd təxribatının gerçək üzünün dünyaya çatdırılmsı çox vacibdir. Təbii ki, ermənilər yenə də yalandan don geyib özlərini dünyaya günahsız, yazıq millət kimi qələmə verməklə timsah göz yaşları tökdülər. Bu gün də saxta göz yaşları axıtmaqdadırlar. Əslində isə baş verənlərin günahkarı elə Ermənistandır, onun siyasi rəhbərliyidir, mediasıdır. Ümumiyyətlə, Ermənistanın həyata keçirdiyi təxribatların informasiya texnologiyaları vasitəsilə yayılması çox müsbət hal olardı. İSBAM sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə şərhində bildirdi ki, hələ qədim dünyada informasiyanın özlüyündə çox güclü bir silah olması faktını alimlər təstiqləyir və o fiziki müharibənin tərkib hissəsidir. S.Adıgözəlli hesab edir ki, Azərbaycanın bu sahədə kifayət qədər imkanları var və informasiya



texnologiyalarının verdiyi imkanlardan istifadə edib təbliğatı mütamadi olaraq davam etdirmək mümkündür. "Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları həyatımızın bütün sahələrinə nüfuz edir. Təbii ki, bu sahənin bir ölkədə inkişafı, həmin ölkənin müxtəlif istiqamətlərdə irəliləməsi informasiya texnologiyası sahəsində üstünlük əldə etməsidir. Sözsüz, informasiya-kommunikasiya texnologiyaları xüsusi olaraq da təhlükəsizlik sahəsində mühüm rol oynayır. Bu çox əhəmiyyətli məsələdir. Hazırkı dövrdə müharibə şəraitində hansı ölkənin ki, informasiya texnologiyaları sahəsi inkişaf edib və informasiya sahəsində üstünlüyü var bu o sahədəki qələbəsinin əsas hissəsini həll edir. Əgər bu sahədə axsama varsa, inkişaf yoxdursa, həmin ölkə müharibəni insan və silah üstünlüyü də olsa uduza bilər. Bu ciddi bir səbəbdir. Ermənistanın təxribatlarının ifşa olunmasında müsir informasiya texnologiyalarından daha səmərəli istifadə edilməlidir".

**"İnformasiya texnologiyalarından istifadə edilməklə Ermənistana öz yerini göstərmək mümkün oldu"**

S.Adıgözəllinin sözlərinə görə, biz 44 günlük Vətən müharibəsində bu məsələnin bizim üçün nə dərəcədə önəmli rol oynadığını gördük. "Bu həm beynəlxalq aləmə informsiyanın çatdırılması, həm müharibənin idarə edilməsi baxımından çox vacibdir. Ermənistanın sentyabrın 12-dən 13-nə keçən gecə törətdiyi sərhəd təxribatı ilə bağlı dəqiq və obyektiv informasiyanın yayılması baxımından informasiya texnologiyalarından istifadə edə bildik. Əlbəttə, Azərbaycan XİN bununla bağlı beynəlxalq ictimaiyyəti yaxından məlumatlandırdı. Bu gün Azərbaycanda informasiya kommunikasiya texnologiyalarından istifadə etməklə xeyli işlər görülür. Ən azından Ermənistanın yalançı təxribatına qarşı mübarizə aparılır. Sirr deyil ki, informasiya texnologiyalarından istifadə edilməklə Ermənistana öz yerini göstərmək mümkün oldu".

S.Adıgözəlli hesab edir ki, Azərbaycan mediası da, dövləti də Ermənistanın təxribatının ifşa edilməsi ilə bağlı xeyli işlər görüb və işləri bu gün də davam etdirir. O, qeyd etdi ki, Ermənistanın təxribatları onsuz da hər gün davam edir və biz də bunun qarşısını hər addımda almaq üçün əlimizdə daha güclü resurslar olmalıdır. "Məsələ burasındadır ki, bu sahə çox yüksək səviyyədə inkişaf etdirilməlidir, bunun üçün daha yeni texnologioyalar alınmalıdır. Bu öz yerində bir də biz əsasən xarici mediada obyektiv xəbər yayımına daha çox nail olmalıyıq. Təbiidir ki, heç də bütün ölkələr 12 sentyabr təxribatı ilə bağlı obyektiv mövqe tutmadı, bir sıra xarici mətbuat orqanlarında Ermənistan süddən çıxmış ağ qaşıq kimi qələmə verildi. Çox təəssüflər olsun ki, bəzi ölkələr bizə "təcavüzkar" dedilər, Ermənistanın adını bizə qoymağa çalışdılar. Bütün bunların qarşısını almaq üçün daha da güclü fəaliyyətə keçməliyik. Müasir texnologiyalara sahib olmaqla bu prosesdə davamlı mücadilə verməliyik. Yenə də informasiya savaşında üstünlük bizim əlimizdə olmalıdır. Bu yöndə fəaliyyətimizi daha da gcləndirməliyik"-deyə S.Adıgözəlli vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**